www.525.az Facebook.com/525-ci qəzet - 525.az Instagram.com/525ciqezet



**Asif RÜSTƏMLİ**
**Filologiya elmləri doktoru, professor**

Azərbaycan Milli Elmlər Akademiyası-80

# Repressiya və ədəbiyyat

**(Əvvəli ötən sayımızda)**

Repressiya ədəbi şəxsiyyətlər üzərində sayıqlığını qoruyub saxladıqca sənətkar köksündən kükrəyən yaralı mövzulardan da, qan püskürür, inilti-sızıltı qopur, Vətənin vəsfi, gözəlliyin, təbiətin tərənnümü, insanlığın, xeyirxahlığın, mərdliyin, qəhrəmanlığın öygüsü arxa plana keçirdi. Milli ruhlu şair, yazıçı, sənət adamı repressiv təhdidlərin basqısı altında xalqın bədii-estetik zövqünü oxşayan əsl sənət əsərləri yarada bilməz. Türk ədəbiyyatına, mədəniyyətinə sevgi bəsləyənlərə, Türkiyə mətbuatında şeirlər dərc etdirən müəlliflərə qarşı məhdudiyyətlərin tətbiq edilməsi, yasaq qoyulması təəssüf ki, getgedə ölkədə adi hal alırdı.

Türkiyədə şeirinin çap olunmasına görə ölkədən sürgün edilən şairlərdən biri də **Almas İldırımdır** (1907-1952). Onu sürgünə aparan yolların tarixi 1927-ci ilin ortalarından başlayır. Həmin ilin birinci yarısına qədər o, Bakı Dövlət Universiteti Şərq fakültəsinin Ədəbiyyat ("Словесность") şöbəsinə daxil olmuş, yerli mətbuat orqanlarında əsərləri dərc edilmişdir. Lakin 1927-ci ildə yazdığı və bir "dostu" tərəfindən İstanbula göndərilərək əvvəlcə "Həyat" (1927, № 34), sonra isə M.Ə.Rəsulzadənin sahibi və baş mühərriri olduğu "Yeni Qafqasiya" jurnalında ("1927, 31 temmuz (iyul) № 21) çaplanan və Türkiyə heca poeziyasının görkəmli nümayəndəsi Faruk Nafiz bəyə (1898-1973) ithaf etdiyi "Dağlar" qoşması 20 yaşlı gənc Almas İldırımın karyerasında, həyat yolunda, taleyində dəhşətli bir ildırım kimi çaxdı:

**Torpağın cəvahir, daşların almas,**
**Şamlıqlar geyinmiş ipəkdən libas,**
**Bəzən bilməm neçin saxlıyorsun yas,**
**Quzğundan əsərkən yellər, a dağlar.**
(Elmas Yıldırım. Dağlar // - İstanbul: Yeni Qafqasiya dergisi, 1927, 31 temmuz (iyul) № 21, s.313-314).

Şair vətən, sürgün və mühacirət yaradıcılığında bu mövzuya dönə-dönə toxunmuş, poeziyasında doğma yurdun "zümrüd gözlü yamaclarında" güllər, lalələr bitirən, daşı, torpağı cəvahirə, almasa bərabər tutulan Azərbaycan dağlarının mükəmməl obrazını yaratmışdır. Əzəmət, güc, qüdrət rəmzi olan dağlar da, bəzən için-için ağlayır, gizlincə yas saxlayır. **Şair "günahını" ədəbiyyat cəmiyyətində səmimi etiraf etsə də, proletar tənqidçilər iki məqamı İldırıma bağışlaya bilmirdilər. Birincisi, şeir İstanbulda niyə məhz sovet rejiminin qatı düşməni olan Məhəmməd Əmin Rəsulzadənin dərgisində nəşr olunub? İkincisi, vətəni, onun qüdrətini, sərvətini təcəssüm etdirən dağlar haqqında yazılmış "Çəkilmiş qəlbinə əskidən min** dağ", "Zirvəndə oynaşan rüzgarlar acı" və b. misralar Azərbaycanın sovet rejiminin işğalı altında inlədiyinə işarə deyilmi?

Süleyman Rüstəmin uzaqgörənliklə Almas İldırıma əsəbi tonda söylədiyi "sizdən proletar şairi çıxmaz" - qənaəti özünü doğrultdu. Həqiqətən də İldırım təqiblərdən, izlənmələrdən yaxa qurtarmaq üçün çox çalışsa da, bolşevik məfkurəli proletar şairi ola bilmədi. "Dağlar"ın "Yeni Qafqasiya"da təcəllası şairin həyatını zindana çevirir, onun açıq-aşkar təqibini sürətləndirir. O, 1927-ci ildə yazdığı "Neçin" şeirində qələm dostlarına, həssas oxucularına açıq bəyan edir:

**"Bilməm öz yurdunu sevən bir şair,**
**Neçin də bir cani kimi izlənir?"** (Almas İldırım.Neçin / Boğulmayan bir səs // - Bakı: Avrasiya Press - 2007, s. 172).

A.İldırım incidici və düşündürücü sualının cavabını əslində özü birinci misrada xatırlatmışdır. Şübhəsiz ki, onun "bir cani kimi izlən"ilməsinin əsas səbəbi "öz yurdunu sevən bir şair", milli ruhlu bir ziyalı, istila ilə barışmaz mövqedə dayanan düşüncə adamı olmasıdır. Əsassız təqib olunduğuna, incidildiyinə görə inandığı, arxalandığı dostlardan dəstək umur. Lakin dağlara bənzətdiyi, arxalandığı dostlarının çoxu şairdən üz döndərir. Dağıstana sürgün edilərkən vəfalı "Dağlara vida" deyir:

**Döndü həp düşmən oldu, dost deyilən hər nə var,**
**Barı sən dostluğunda möhkəm dayan, a dağlar.** (Almas İldırım. Dağlara vida / Boğulmayan bir səs // - Bakı: Avrasiya Press - 2007, s. 150).

Dövrün, mühitin amansız təzyiqi, təpkisi hətta dağların da dostluqda möhkəmliyinə skeptik duyğular oyadır. Amma Almas İldırım dağlarla dostluğunda möhkəmdir, etibarlıdır. Onun dağlara həsr etdiyi çoxsaylı şeirləri bənzərsiz, təkrarsız, emosional, poetik düşüncələrin daşıyıcısıdır. Hətta şeirlərindən birində "Bu dağlarçün mən əzəldən bir şair doğulmuşam" - qənaətini xüsusi vurğulayır.

A.İldırım 1927-ci ildə Bakı Universitetindən xaric olunur və zorla sürgünə göndərilərkən Siyəzənin Qızılburun dəmir yol stansiyasında "Of, Bakı... bu ayrılıq mana ölümdən ağır" - harayının əks olunduğu "Dağlara vida" şeirini qələmə alır. Cəsarətli düşüncələr bu şeirin misralarında çırpınır, kükrəyir. Sözün birbaşa mənasında İldırım dağlarla dərdləşməyi bacarır. Ən əziz adama etibar edə bilmədiyi sözü, sirri o dağlara üz tutub deyə bilir:

**Nə düşər yurdu batmış**
**bir igidin payına?**
**Ya şərəfli istiqlal, ya qızıl qan, a dağlar!..** (Elmas Yıldırım. Dağlara veda / Hazardan - Hazara. Envar Aras // - TC Elazığ: Manas - 2007, s. 321).

"Yurdu batmış", işğal olunmuş, ölkəsi əsarətdə inləyən, soyulan, tapdanan igid elə Almas İldırımın özüdür, onunla eyni ağrı-acıların daşıyıcısı olan milli düşüncə sahibləridir, ildırımların mənsub olduğu millətdir. Şair istilaya qarşı barışmaz mövqeyini sərgiləyərək "Ya şərəfli istiqlal, ya qızıl qan" - deyə vətəni işğala məruz qalmış igidləri açıq üsyana, azadlıq mübarizəsinə səsləyir.

Almas İldırımın Dağıstandan sonra 1931-ci ildə Türküstana sürgün olunması haqqında qərar qəbul edilir. Dağıstandakı sərbəstlikdən fərqli olaraq şairin Aşqabaddan kənara çıxmağa ixtiyarı yox idi. Sürgünün əsas səbəbini Bakı buxtasından gəmi ilə uzaqlaşarkən yazdığı "Əlvida, Bakı" şeirində çox dəqiq göstərmişdir:

**Günahım - "Can!" dedim sənə,**
**qovuldum,**
**Acımadın bu qurbana, əlvida...** (Elmas Yıldırım. Dağlara veda / Hazardan - Hazara. Envar Aras // - TC Elazığ: Manas - 2007, s. 325).

İldırım sürgünə gedərkən iyirmi dörd yaşının tamam olduğunu bildirir, Çəmbərəkəndin, Qız qalasının gözdən itdiyini xatırladır və Bakıya üz tutaraq: "Bəlkə də dönməmdim sana, əlvida..." - deyir. Şairin öz taleyi, gələcəyi haqqında uzaqgörənliklə, ilahi bir fəhmlə söylədiyi bu düşüncələr təəssüf ki, doğru çıxdı...

Almas İldırım Aşqabadda da az vaxt içərisində ədəbi mühitə adaptasiya olunur, yerli camaata qaynayıb-qarışır. Ənənəsinə sadiq qalaraq ilk şeirini 1931-ci ildə Aşqabad yaxınlığındakı "Kopet dağları"na həsr edir. "Gəlmiş hüzuruna əsir bir şair" - deyə dağlarla dərdləşmə, sıxıntı və nigarançılığı həzin bir piçıltı ilə söyləniş bu şeirdə də öz əksini tapmışdır.

Almas İldırım Aşqabadda nəşr olunan "Zəhmət" qəzetində "Çadra qurbanı", "Amu dərya", "Saraylar yıxılarkən", "Qorkiyə" və s. əsərlərini çap etdirmişdir.

O, Şamaxıdan sürgün olunmuş bir ailənin qızı - Zivər xanımla tanış olur, gənclər bir-birini böyük məhəbbətlə sevir. 1932-ci ilin 1 may günü İldırım bəy və Zivər xanım ailə qururlar. 1933-cü il mart ayının 1-də bu xoşbəxt cütlüyün ilk oğul övladı dünyaya gəlir. Adını didərgin salındıqları böyük vətənin şərəfinə Azər qoyurlar...

Ədəbi-mədəni sahədə səmərəli fəaliyyətinə baxmayaraq, Almas İldırımın əleyhinə təbliğat işlərinin qızışdırılmasına start verilir. O, müsavatçılarla sıx əlaqədə günahlandırılır, əsərləri sərt tənqidə məruz qalır. Şair "Zəhmət" qəzetinin 1932-ci il 27 aprel sayında "Öz haqqımda" adlı yazı çap etdirir. Yazıda deyilir: "...bən gözümü açıb bu mühiti görən və islah olunmaq qabiliyyətinə malik bir gənc şairəm".

Bunu "Azərnəşr" nəzərə alaraq "Dağlar səslənirkən" adlı kitabçamı proletar yazıçılarının göstərişi ilə çap etmişdir. Hətta 30-cu ildə, haman kitabça çap olunmadan əvvəl Azərbaycan proletar yazıçılarının bir yığıncağında Mehdi Hüseynzadə yoldaşın məruzəsi ilə təhlil və tənqiddən keçərək nəticədə bəni bir cığırdaş (poputçik) adlandırmaqla son zamanlardakı fəaliyyətimə yekun vurulmaqla bənim tədricən proletar ədəbiyyatına doğru gəldiyim dəxi qeyd olunmuşdur.

Buna baxmayaraq, Azərbaycan proletar yazıçılarının pleniumunda S.Rüstəmin yenə də 25-ci ildə yazdığım "Sevdiyim" adlı bir şeirə əsaslanaraq bugünkü ədəbi fəaliyyətimə göz yumaraq bəni sinfi düşmən şairi adlandırması yersiz olsa gərəkdir.

S.Rüstəm bilməlidir ki, o zaman o özü də haman təsirlərdən qurtarmamışdı və yenə də bilməlidir ki, illər çox sürətli hər bir şey öz əski halında buraxmayan illərdir. O zamandan 7 il keçir... bəndə o təsirlərdən əsər belə qalmamışdır" (Almas İldırım. Öz haqqında / - Aşqabad: Zəhmət qəz., 1932, 27 aprel).

"Zəhmət" qəzetinin məsul redaktoru C.Xəlilovun təkidi ilə Almas İldırımın yazdığı etiraf məktubu Bakıdan gələn tənqid selinin qarşısını kəsməkdə gücsüz idi. Ədəbiyyat funksionerləri şairin etirafından sonra daha da qızışırlar. "Gənc işçi", "Zəhmət" qəzetlərində əleyhinə ifşaedici materiallar dərc olunur. Almas İldırım mühacirətə getmək üçün yollar aramağa başlayır. Nəhayət həyat yoldaşı Zivər xanımla və üç ay yarımlıq körpəsi Azərlə 1933-cü ilin iyun ayının 19-da gizlincə Aşqabadı tərk edir.

Almas İldırımın altı illik üzücü, əzablı sürgündən sonra məşəqqətli mühacirət həyatı başlayır, ailəsi və körpə oğlu ilə əvvəlcə İrana, müəyyən müddətdən sonra isə Türkiyəyə üz tutur...

**"Kim məni saldı bilməm dayanılmaz bu dərdə,**
**Nerdə mənim öz yuvam, öz elim, günüm nerdə?"** (Elmas Yıldırım. Yaralı olmasaydı / Hazardan - Hazara. Envar Aras // - TC Elazığ: Manas - 2007, s. 456).

- deyən vətənpərvər şairin həyatda yaşadığı yurd, ev-ocaq həsrəti, düşmən hiyləsi, namərd tələsi və bütün bunların verdiyi mənəvi iztirablar, ağrı-acılar, sızıltılar həssas və sevgi dolu qəlbindən misralara süzülərək hüznlü, düşündürücü hayqırış simfoniyasına çevrilirdi.

●●●

Sovet rejiminin humanitar sahə üzərində çoxyönlü və müxtəlif kalibrli repressiv hücumlarının apogeyi, pik nöqtəsi şübhəsiz ki, 1937-ci ildir. Fəlakət və faciə dalğasının təsir radiusu sabiq Sovetlər Birliyinin ən ucqar kəndlərini, aullarını belə əhatə etmiş, insan talelərinə, sənətkar ömrünə, öz mənfur izini buraxmış, damğasını vurmuşdur.

Ədəbiyyatşünaslıq sahəsində həyata keçirilən irimiqyaslı elmi-tədqiqat işlərinə, zəruri təşkilati islahatlara baxmayaraq, 1937-ci ilin repressiyaları Dil və Ədəbiyyat İnstitutunun kollektivindən də yan keçmədi. Ağır cəza tədbirlərinin ilk dalğası Dil və Ədəbiyyat İnstitutunun direktor müavini vəzifəsini icra edən, elmi katib Hənəfi Zeynallını hədəfə aldı.

Hənəfi Baba oğlu Zeynallı (1896-1937). Bakıda anadan olmuş, 6 yaşında yetim qalmış, ana himayəsində böyüyərək əvvəlcə 7-ci Rusi və müsəlmai məktəbini, sonra isə Alekseyev adına 3-cü Ali-ibtidai məktəbi bitirmişdir. 1915-ci ildə Bakı Sənaye Məktəbinə daxil olmuşdur. 1917-ci il 1 yanvar tarixində Hənəfi Zeynallı dostu Cəfər Cabbarlıya yazırdı: "Sevgili qardaşım, Cəfər! O gün sənin ilə görüşdük. Lakin vaxt əl vermədim ki, sənin öz həyatından, dərslərindən ədəbiyyatda cəhd üçün işlədiyindən hali olum. Bakıda ... çox qalmadım. Fəqət bu fikir ilə mən də, aradım. Narahat oldum ki, sən neyləyirsən... Sən... əzizim... bənövşələrdən birisən. Həvəsini daha artır. Gələcəkdə bizim millətdə də səni Tofiq Fikrət, Namiq Kamal kimi, ingilislərin Şekspiri, almanların Hötesi kimi görmək istəyirəm. Afaq fikirlərini aç, başqa əsərlərdən oxu. Mütaliədə bir şey tapdıqda, sən başkasını yaradarsan. Bəlkə ondan daha qüvvətli yazarsan. Özündən muğayat ol! Şair və ədib millətə lazımdır!.. 1/1-1917".

**(Ardı var)**